Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 214 (21.875)

11 noyabr 2017-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Gəncə şəhərinə səfərə gəlib.

Dövlətimizin başçısı həmin gün Gəncə Dövlət Filarmoniyasının yeni binasının açılışında iştirak edib.

Prezident İlham Əliyev Gəncəyə səfəri çərçivəsində "Majestic Palace" otelinin tikintisi ilə tanış olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da "Gəncə Mall" Ticarət Mərkəzində yaradılan şəraitlə tanış olub.

Dövlətimizin başçısı həmin gün İsmət Qayıbov adına Gəncə şəhər 1 saylı tam orta məktəbin binasında aparılan əsaslı təmir və yenidənqurma işlərindən sonra yaradılan şəraitlə tanış olub.

Prezident İlham Əliyev noyabrın 10-da Gəncədə Azərbaycan Dövlət Aqrar Universitetinin tələbələri üçün yeni inşa edilmiş 514 yerlik yataqxana kompleksinin açılışında iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 10-da Gəncədə "Grand Qafqaz" Ticarət Kompleksinin açılışında iştirak edib.



## Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyi qeyd olunub





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2017-ci il yanvarın 14-də "Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamış və yubileylə bağlı Tədbirlər Planını təsdiq etmişdir. Yubiley ərəfəsində Naxçıvan Dövlət Universitetinin İqtisad fakültəsi üçün yeni bina inşa olunmuşdur.

Noyabrın 10-da Naxçıvan Dövlət Universitetinin İqtisad fakültəsinin yeni binası istifadəyə verilmişdir.







Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, tədris korpusunda yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, 2 mərtəbədən ibarət olan İqtisad korpusunda 5-i elektron lövhəli, 1-i elektron kürsülü olmaqla 24 auditoriya, kompüter sinfi, kitabxana, arxiv, dekanlıq və kafedralar üçün otaqlar yerləşir. Kompüter sinfində 31 kompüter quraşdırılaraq internetə qoşulmuşdur. Dekanlıq və kafedra otaqları da kompüterlərlə təchiz edilib. Binada elektron təhsilin tətbiqi üçün müasir infrastruktur yaradılıb. Müasir interyeri ilə diqqəti cəlb edən geniş auditoriyalarda proyektorlar, kompüter dəstləri, elektron lövhələr və elektron kürsülər quraşdırılmış, sürətli internetə çıxış təmin edilmişdir.

İqtisad fakültəsində "İqtisadiyyat", "Mühasibat uçotu və audit", "Dünya iqtisadiyyatı" və "Menecment" ixtisasları üzrə ali təhsilli kadrlar hazırlanır, "İqtisadiyyat", "Mühasibat uçotu və maliyyə", "Dünya iqtisadiyyatı və Menecment" kafedraları fəaliyyət göstərir.

Həmin gün Naxçıvan Dövlət Musiqili Dram Teatrında Naxçıvan Dövlət Universitetinin 50 illiyi ilə əlaqədar tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yubiley tədbirində çıxış edərək demişdir: Bu gün Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyini qeyd edirik. Naxçıvan Dövlət Universiteti ötən 50 ildə böyük inkişaf yolu keçib. Ali təhsil ocağının milli təhsil müəssisəsinə çevrilməsi ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, 1972-ci ildə ulu öndərimizin himayəsi ilə Azərbaycan Pedaqoji İnstitutu Naxçıvan filialının bazasında müstəqil institut yaradılmış, sonradan isə həmin institut universitetə çevrilmişdir. ***"Çox xoşbəxtəm ki, mən bu universitetin yaranmasının təməlini qoyanlardan biri və onun təşəbbüskarıyam... Böyük iftixar hissi keçirirəm ki, əsasını qoyduğumuz bu gözəl təhsil ocağı indi böyük şöhrətə malikdir... Naxçıvan təhsili, məktəbi mənim üçün əzizdir. Naxçıvan Dövlət Universiteti isə Naxçıvan təhsilinin zirvəsidir"***, – deyən ümummilli liderimizin tövsiyələri əsas götürülərək burada quruculuq tədbirləri görülmüş, müasir təhsil infrastrukturu yaradılmışdır. Həyata keçirilən tədbirlərin bariz nümunəsidir ki, bu gün – universitetin yubiley günündə də Naxçıvan Dövlət Universitetinin İqtisad fakültəsi üçün müasir tələblərə uyğun yeni tədris korpusu istifadəyə verildi.

Ali Məclisin Sədri Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyi və yeni tədris korpusunun istifadəyə verilməsi münasibəti ilə universitetin bütün professor-müəllim heyətini və tələbələri, tədbir iştirakçılarını təbrik edərək demişdir: Ölkə Prezidenti cənab İlham Əliyevin təhsilin inkişafı və insan kapitalının formalaşdırılması sahəsində müəyyənləşdirdiyi tədbirlərə uyğun olaraq bu gün Naxçıvan Dövlət Universitetində də yeni inkişaf mərhələsinə qədəm qoyub. Muxtar respublikada aparılan quruculuq işləri bu universiteti də əhatə etmiş, son illər tədris korpusları, kitabxana, Konservatoriya, Sosial Xidmət Mərkəzi, Xəstəxana, Olimpiya-İdman Mərkəzi, Baytarlıq Təbabəti və Tələbə evi istifadəyə verilmiş, böyük bir ərazidə müasir "Universitet şəhərciyi" salınmışdır. Naxçıvan Dövlət Universitetində informasiya texnologiyalarının ən son nailiyyətləri tətbiq olunmuş, elektron idarəetmə və tədris sistemi istifadəyə verilmiş, kadr hazırlığına diqqət artırılmış, yeni fakültələr və ixtisaslar açılmışdır. 1967-ci ildə 3 ixtisas və 103 tələbə ilə fəaliyyətə başlayan universitetdə hazırda 6 minə yaxın tələbə təhsil alır. 58 ixtisas üzrə bakalavr, 68 ixtisas üzrə magistr, 35 ixtisas üzrə doktorant hazırlığı aparılır. Universitetdə dissertasiya şurasının fəaliyyət göstərməsi muxtar respublikada ali təhsillə yanaşı, elmi potensialın da inkişafına əhəmiyyətli təsir göstərmişdir.

Ali Məclisin Sədri demişdir: Bu gün qətiyyətlə demək olar ki, Naxçıvan Dövlət Universitetinin keçdiyi yol zəngin maarifçilik ənənələrinə malik olan Naxçıvan Muxtar Respublikasında təhsilin yeni inkişaf tarixidir. Universitet muxtar respublikada ali təhsil sisteminin inkişafı ilə yanaşı, milli şüurun formalaşmasında, gənclərin vətənpərvərlik tərbiyəsində də mühüm xidmətlər göstərmiş,

Ardı 2-ci səhifədə

burada peşəkar milli kadrlar hazırlanmışdır. Artıq Naxçıvan Dövlət Universitetinin məzunları Azərbaycanda milli dövlət quruculuğunun müxtəlif sahələrində çalışır, sosial-iqtisadi inkişafa öz töhfələrini verirlər. Ölkə Prezidenti cənab İlham Əliyev Naxçıvan Dövlət Universitetinin fəaliyyəti haqqında demişdir: ***"Naxçıvan Dövlət Universiteti böyük və şərəfli yol keçmişdir. Mən şadam ki, universitet çox sürətlə inkişaf edir, burada çox böyük işlər görülür. Universitet dünyanın aparıcı ali məktəbləri ilə çox yaxşı işgüzar əlaqələr yarada bilibdir. Burada müxtəlif ölkələrdən tələbələr oxuyur. Bu da onu göstərir ki, Naxçıvan Dövlət Universitetinin nüfuzu dünyada kifayət qədər yüksək səviyyədədir".***



Ali Məclisin Sədri Azərbaycanda ali təhsilli ixtisaslı kadrların hazırlanması sahəsindəki səmərəli fəaliyyətinə, eləcə də elmin və təhsilin inkişafındakı xidmətlərinə görə Naxçıvan Dövlət Universitetinin kollektivinə təşəkkür etmişdir.

"Naxçıvan Dövlət Universitetinin ötən 50 ildə qazandığı təcrübə, elmi potensial və yaradılan tədris imkanları bizim sərvətimizdir", – deyən Ali Məclisin Sədri bu sərvətdən səmərəli istifadə edilərək ölkəmizin və xalqımızın bu günü və sabahı üçün layiqli vətəndaşlar hazırlanacağına əminliyini bildirmiş, universitetin kollektivini bir daha yubiley münasibəti ilə təbrik etmişdir.

Sonra tədbirdə Azərbaycan Respublikasının medal və fəxri adlarına, Naxçıvan Muxtar Respublikasının fəxri adlarına layiq görülənlərə müvafiq təltif və mükafatların təqdimatı olmuşdur.

Qeyd olunmuşdur ki, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 31 oktyabr tarixli Sərəncamları ilə Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyi münasibətilə və təhsilin inkişafındakı xidmətlərinə görə universitetin əməkdaşlarından 7-si "Tərəqqi" medalı, 8-i isə Azərbaycan Respublikasının "Əməkdar müəllimi" fəxri adı ilə təltif olunub. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 1 noyabr tarixli Sərəncamı ilə Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyi ilə əlaqədar olaraq muxtar respublikada təhsil sahəsində səmərəli fəaliyyətlərinə görə universitetin müəllimlərindən 16-sı Naxçıvan Muxtar Respublikasının "Əməkdar müəllimi", 1-i "Əməkdar mədəniyyət işçisi", 1-i isə "Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adlarına layiq görülüb.

Ali Məclisin Sədri təltif olunanlara medal və fəxri adların döş nişanını və vəsiqələrini, eləcə də Naxçıvan Dövlət Universitetində fərqlənən 10 müəllim və 8 tələbəyə noutbuk, 24 tələbəyə isə planşet təqdim etmişdir.

Təltif olunan müəllimlərdən İsmayıl Zeynalov, Allahverdi Hüseynov, Əbülfəz Məmmədov, Akif Əliyev və Məmməd Əliyev əməklərinə verilən yüksək qiymətə görə minnətdarlıq etmişlər.

Universitetin Müalicə işi ixtisası üzrə üçüncü kurs tələbəsi, Türkiyə vətəndaşı Şehriban Sarıhan minnətdarlıq edərək demişdir: Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dediyi kimi: ***"Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir".*** Birlik, bərabərlik, dostluq və qardaşlıq münasibətləri hər iki ölkədən olan gənclərin dəyərlərimizə sədaqət ruhunda tərbiyəsinə imkan verir. Biz gənclər Azərbaycanın bayrağını öz bayrağımız, sevincini öz sevincimiz kimi qəbul edirik. Naxçıvanda təhsil almağımız üçün yaradılan şərait və göstərilən diqqət isə məsuliyyətimizi daha da artırır. Bütün bunlar tələbə-gənclər tərəfindən böyük razılıqla qarşılanır.




Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyi münasibətilə təbriklərini çatdıraraq demişdir: Zəngin və şərəfli inkişaf yolu keçən Naxçıvan Dövlət Universiteti Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ideyalarına köklənmiş dövlətçilik universitetidir. 5 min illik tarixi olan Naxçıvanda elmin və təhsilin inkişafı sahəsində görülən işlər Naxçıvan Dövlət Universitetinin timsalında daha aydın görünür. Ali Məclis Sədrinin diqqət və qayğısı nəticəsində universitetdə böyük quruculuq işləri aparılmış, tədris müasir tələblərə uyğun qurulmuş, yeni fakültələr və ixtisaslar açılmışdır. Artıq Naxçıvan Dövlət Universiteti elmin, tədrisin və mədəniyyətin inteqrasiyasını özündə birləşdirən mötəbər ali təhsil ocağıdır. Universitet ölkəmizdə ixtisaslı kadrlara olan tələbatın ödənilməsi sahəsində səmərəli fəaliyyət göstərir. Bu gün Naxçıvan Dövlət Universitetinin məzunları dövlətçilik təfəkkürü və Azərbaycançılıq məfkurəsi ilə zənginləşmiş yeni nəsildir.

Tədbirdə Naxçıvan Dövlət Universitetinin 50 illik yubileyinə həsr olunmuş sənədli televiziya filminə baxış olmuşdur.

Sonra Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin müəllim və tələbələrinin ifasında konsert proqramı olmuşdur.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

***12 noyabr Konstitusiya Günüdür***

# Ölkəmizdə uğurlu Konstitusiya islahatları həyata keçirilir

1993-cü ildə ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışı nəinki Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, həm də onun dövlətçiliyinin xilasında müstəsna rol oynadı. Ümummilli lider öz qətiyyəti, dərin zəkası, zəngin dövlətçilik təcrübəsi və böyük siyasi nüfuzu sayəsində xilaskarlıq missiyasına başladı. Təsadüfi deyil ki, 1995-ci il iyunun 5-də ümummilli lider Heydər Əliyevin sədrliyi ilə Konstitusiya Komissiyası yaradıldı. Qeyd edək ki, bu ali sənədin müasir dəyərləri özündə ehtiva edən mükəmməl formada qəbul olunmasını reallaşdırmaq üçün ulu öndər layihənin hazırlanması zamanı onun hər bir müddəasını şəxsən nəzərdən keçirmiş, dövlətin gələcək taleyi, demokratik imici baxımından bu işə son dərəcə həssaslıqla yanaşmışdı. ***"Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasında demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü – ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti – bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır",*** – deyən ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının hazırlanmasında həm ölkəmizin tarixi keçmişinin milli dəyərlərindən, həm də ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin təcrübəsindən istifadə edilməsini mühüm vəzifə kimi irəli sürmüşdü. Konstitusiya layihəsi hazırlandıqdan sonra cəmiyyətin müxtəlif təbəqələrinin iştirakı ilə onun açıq müzakirələrinin keçirilməsi bu ümumxalq əhəmiyyətli sənədin ən təkmil formada ərsəyə gətirilməsinə şərait yaratmışdır. Bütün müzakirələrin nəticəsi olaraq 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə müstəqil dövlətimizin ilk Konstitusiyası qəbul olunmuşdur.

Ulu öndərin müəllifi olduğu Konstitusiyanın qəbul edilməsi xalqımızın dövlət müstəqilliyi tarixində konstitusionalizm məfkurəsini əks etdirən hadisə idi. Bununla ölkəmizin və xalqımızın dövlətçilik tarixinə yeni bir səhifə yazıldı, dahi rəhbər Heydər Əliyevin uzunmüddətli gərgin əməyinin məhsulu olan Konstitusiya öz demokratikliyi, humanistliyi ilə seçilərək ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi və müstəqil dövlətçiliyimizin tərəqqisi üçün hərtərəfli zəmin yaratdı, xalqımızın demokratik dövlət qurmaq və dünya arenasında layiqli yer tutmaq istəyini nümayiş etdirdi. Məhz bu tarixi hadisədən sonra Azərbaycanda hüquqi islahatlara başlanıldı. Ümummilli lider Heydər Əliyevin dediyi kimi: ***"Konstitusiya Azərbaycanda demokratik, hüquqi dövlətin qurulması, demokratik vətəndaş cəmiyyətinin yaranması üçün əsaslar yaratmış, bütün təminatları vermişdir. Bizim borcumuz bu təminatlardan, konstitusiyanın bizə verdiyi qanuni əsaslardan səmərəli istifadə etmək və ölkəmizdə hüquqi, demokratik dövlət yaratmaq, vətəndaşların, insanların hüquqlarının qorunmasını təmin etməkdən ibarətdir".***

Azərbaycan Respublikasının Konstitusiyasında müasir sivil cəmiyyətin inkişaf istiqamətlərini müəyyənləşdirən, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna imkan verən mütərəqqi ideya və dəyərlər geniş şəkildə öz əksini tapmış, insan hüquqlarının və azadlıqlarının təminatları müəyyən edilmişdir. Dövlət müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, qanunun aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, vətəndaşların layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq qalaraq digər xalqlarla dostluq, sülh, əmin-amanlıq şəraitində yaşamaq kimi ülvi niyyətlərin bəyan edilməsi Konstitusiyamızın ali dəyərlərini əks etdirir.

Azərbaycan Respublikasının Konstitusiyası dövlətin hər hansı maraqlara deyil, məhz vətəndaşların mənafelərinə, azad cəmiyyətin aparıcısı olan şəxsiyyətin maraqlarına xidmət etdiyini ən yüksək səviyyədə bəyan etmişdir. Bu baxımdan Konstitusiyamızın üçdəbir hissəsi əsas insan və vətəndaş hüquqlarına və azadlıqlarına həsr edilmiş, Əsas Qanunun ən böyük fəsli olan üçüncü fəsildə insan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipi, onların reallaşdırılması mexanizmləri, habelə ayrı-ayrı hüquqların beynəlxalq standartlara müvafiq olaraq qanuni məhdudlaşdırılmasının yol verilən hədləri nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının qəbulu nəticəsində ölkəmizdə genişmiqyaslı qanunvericilik və məhkəmə-hüquq islahatları aparılmış, həmin islahatlar nəticəsində müstəqil məhkəmə hakimiyyətinin yaradılması üçün zəruri qanunvericilik bazası formalaşdırılmış, yeni üçpilləli məhkəmə sistemi təsis edilmişdir ki, bu da vətəndaşların qanuni maraq və mənafelərinin ədalət mühakiməsi yolu ilə birinci instansiya, apellyasiya və kassasiya instansiyası məhkəmələri tərəfindən daha etibarlı şəkildə müdafiə olunmasına öz müsbət təsirini göstərmişdir. Təsadüfi deyil ki, Konstitusiyada təsbit edilmiş hakimiyyətlərin bölgüsü prinsipinə müvafiq olaraq məhkəmə hakimiyyəti orqanları həm də keyfiyyətcə yeni funksiyalar əldə etmişdir.

Konstitusiyanın gətirdiyi əhəmiyyətli yeniliklərdən biri də həmin dövrə qədər dövlətçilik tariximiz üçün səciyyəvi olmayan yeni bir institutun – Konstitusiya nəzarəti təsisatının yaradılması olmuşdur. Qeyd edilməlidir ki, Konstitusiya nəzarətinin əsas məqsədi Konstitusiyanın aliliyinin təmin edilməsi və Konstitusiya ilə təsbit olunmuş insan hüquq və azadlıqlarının müdafiəsidir. Bu baxımdan ali Konstitusiya ədalət mühakiməsi orqanı olan Konstitusiya Məhkəməsi normativ hüquqi aktların Konstitusiyaya və hüquqi iyerarxiyada özündən üstün qüvvəyə malik aktlara uyğunluğunun müəyyənləşdirilməsi, insan hüquq və azadlıqlarının həyata keçirilməsi məsələləri ilə bağlı Konstitusiyanın və qanunların şərh edilməsi, hakimiyyətlər arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələrin həll edilməsi, seçkilərin nəticələrinin yoxlanılması və təsdiq edilməsi kimi mühüm səlahiyyətlərə malikdir.

Konstitusiyamızın gətirdiyi digər yeniliklərdən biri də ilk dəfə yerli özünüidarəetmə orqanları olan bələdiyyələrin statusunun konstitusion səviyyədə təsbit edilməsi olmuşdur. Milli Konstitusiyamızın qəbulundan sonra Azərbaycanda ilk dəfə yerli özünüidarəetmə orqanı – bələdiyyələr yaradılmış və fəaliyyətə başlamışdır.

Əsas Qanunumuzda Naxçıvan Muxtar Respublikasının konstitusion hüquqi statusuna həsr olunmuş xüsusi fəslin olması Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının qəbul edilməsi üçün əsas yaratmışdır. Azərbaycan Respublikasının Konstitusiyasının 8-ci fəslində əks olunmuş müddəalar əsas götürülərək Naxçıvan Muxtar Respublikası Konstitusiyasının layihəsi hazırlanıb 1998-ci ildə Azərbaycan Respublikasının Milli Məclisində iki dəfə səsə qoyulmuş, Konstitusiya Qanunu kimi qəbul edildikdən sonra 8 yanvar 1999-cu ildə qüvvəyə minmişdir.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının qəbul edilməsi Naxçıvan Muxtar Respublikasının statusunu, muxtariyyətinin əsaslarını, dövlət hakimiyyətinin hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkili, onların qarşılıqlı əlaqəsini müəyyənləşdirmişdir. Bu Konstitusiya ilə Naxçıvan Muxtar Respublikasında ilk dəfə ali vəzifəli şəxs institutu təsis edilmişdir. Bu Konstitusiyanın qəbulu siyasi-hüquqi əhəmiyyətinə görə nəinki muxtar respublikada, bütövlükdə ölkəmizdə mühüm əlamətdar hadisəyə çevrilmiş, beynəlxalq təcrübədə nümunəvi model kimi dövlət idarəetməsinin təşkilinin mükəmməl hüquqi bazasını yaratmışdır.

Azərbaycan Respublikasının beynəlxalq arenaya inteqrasiyasının gücləndiyi və hüququn müasir inkişafı şəraitində Konstitusiya islahatlarının aparılması zərurətə çevrilmişdir. Məhz bu zərurətdən qaynaqlanaraq 2002, 2009 və 2016-cı illərdə referendum keçirilməklə Konstitusiyamıza əlavələr və dəyişikliklər edilmişdir.

2002-ci il avqustun 24-də ölkəmizdə ümumxalq səsverməsi – referendum keçirilmiş, ilk dəfə Konstitusiyanın, ümumilikdə, 24 maddəsinə 31 əlavə və dəyişikliklər edilmişdir. 2009-cu il martın 18-də ölkəmizdə yenidən ümumxalq səsverməsi – referendum keçirilmiş, ikinci dəfə Konstitusiyaya 29 maddə üzrə 41 əlavə və dəyişikliklər edilmişdir. 2016-cı ildə keçirilən ümumxalq səsverməsi – referendumla isə Konstitusiyanın 23 maddəsinə əlavə və dəyişikliklər edilmiş, eləcə də yeni 6 maddə əlavə olunmuşdur.

*Hazırda ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları, qanunvericilik sahəsində əldə olunan nailiyyətlər mənbəyini Azərbaycan Konstitusiyasından alan möhkəm hüquqi bazaya malikdir. Bu gün böyük qürur hissi ilə söyləyə bilərik ki, möhkəm hüquqi bazaya malik olan Azərbaycan Respublikasının Konstitusiyası hələ uzun illər Azərbaycan Respublikasının sabitlik şəraitində davamlı inkişafını təmin etməyə, müstəqil dövlətimizin demokratik inkişaf hədəflərini müəyyənləşdirməyə, müstəqilliyimizi yaşatmağa qadir olacaq və Azərbaycan xalqına xidmət edəcəkdir.*

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məhkəməsinin mətbuat xidməti**



# Oxucu məktubları

*“Şərq qapısı” qəzetinə yazırlar*

## Ərəbyengicədə gördüklərim məni çox qürurlandırdı



***Mən qədim diyarımız Naxçıvanda, daha dəqiqi desək, Şərur rayonunun Ərəbyengicə kəndində doğulmuşam. İşimlə əlaqədar Bakı şəhərində yaşayıram. İki-üç ildən bir qohum-qardaşı görmək üçün doğma yurduma gəlir və hər səfərimdə də yeni, gözoxşayan mənzərələrin şahidi oluram. Görürəm ki, Naxçıvan zəhmətkeş insan əlləri ilə ilbəil, aybaay, günbəgün qurulur, gözəlləşir, inkişaf edir. 27 ilə yaxındır ki, blokada şəraitində olmasına baxmayaraq, Naxçıvandakı yeniliklər hər kəsin gözü önündədir. Bu yaxınlarda Naxçıvanda olduğum bir neçə gün müddətində bu mənzərənin bir daha şahidi oldum.***

Naxçıvan, onun ən böyük bölgəsi olan Şərur mənim nəzərimdə dünyanın ən gözəl yerlərindəndir. Buranı hər tərəfdən qucaqlayan əzəmətli, vüqarlı dağlar insanların məğrurluğunun, əyilməzliyinin simvoludur. Yaz-yay aylarında gül-çiçəyə bələnən təpələr, yamaclar insanı valeh edir. Hətta ən ucqar yaşayış məntəqələrindəki kənd mərkəzləri, məktəblər, səhiyyə və mədəniyyət müəssisələri, yeni tikilmiş yaşayış binaları belə deməyə əsas verir ki, Naxçıvanda mərkəzə yaxın və ucqar kənd arasında fərq artıq aradan götürülüb.

Arpaçayın sahilində yerləşən Ərəbyengicə kəndinə əsl şəhər görkəmi verilib. Bir vaxtlar mənim də təhsil aldığım birmərtəbəli, darısqal məktəb binasının yerində artıq üçmərtəbəli, yaraşıqlı bir bina ucaldılıb, kənd mərkəzi, tibb müəssisəsi, xidmət evi inşa olunub, ətraf tamamilə abadlaşdırılıb, yollar asfaltlanıb. Kənddə olarkən öyrəndim ki, artıq Şərur rayonunun onlarla yaşayış məntəqəsində sakinlərin rahatlığını təmin etmək, yerli qurumların fəaliyyətini asanlaşdırmaq məqsədilə belə tədbirlər görülüb. Rayon mərkəzini isə gəzməkdən doymaq olmur. Rayonumuzdakı təmizliyə, səliqə-sahmana heyran oldum. Bakıya qayıdandan sonra dost-tanışlarıma da bu barədə danışıram. Onlar da görsünlər ki, şəhəri, kəndi necə abadlaşdırar, tikib-qurulanları necə qoruyarlar.

Doğrudan da, muxtar respublikamızın bütün bölgələri, o cümlədən Şərur rayonu ildən-ilə, aydan-aya deyil, günbəgün, saatbasaat yenilaşir, gözəlləşir. Muxtar respublika rəhbərinin daim diqqət və qayğısı ilə əhatə olunmuş rayonumuzun hətta ən ucqar kəndlərində belə, yeni inzibati, sosial-mədəni obyektlər inşa olunur.

Bütün bunlar, birinci növbədə, yüksək təşkilatçılığın, daha sonra ana yurda, doğma Vətənə, torpağa bağlılığın göstəricisidir. İnanıram ki, doğma yurdun insanları onlar üçün yaradılan şəraitdən düzgün istifadə edəcək, dövlətimizin inkişafı naminə əllərindən gələni əsirgəməyəcəklər.

**Hüseyn SƏFƏROV**
**Bakı şəhəri**

*Minnətdarlıq*

## Muxtar respublikamızda gənclər dövlət qayğısı ilə əhatə olunub



Milli müstəqilliyimizin və dövlətçiliyimizin möhkəmləndirilməsində, gələcəyimizin təmin edilməsində gənclərin sosial-siyasi fəallığının yüksəldilməsi ən mühüm amillərdən biridir. Buna görə də bu gün ölkəmizin hər yerində olduğu kimi, muxtar respublikamızda da gənclərə dövlət səviyyəsində diqqət və qayğı prioritet sahələrdən birinə çevrilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində gənclər dövlət idarələrində işlə təmin olunur, onların sosial problemlərinin həlli istiqamətində məqsədyönlü işlər həyata keçirilir.

Göstərilən dövlət qayğısı biz gəncləri də ruhlandırır, ölkəmizin gələcəyi naminə daha yaxşı çalışmağa, işləməyə, qurub-yaratmağa həvəsləndirir. Mən də bu qayğı nəticəsində orta təhsilimi yüksək qiymətlərlə bitirib, yüksək balla ali məktəbə qəbul olan gənclərdən biriyəm. Arzum müəllim olmaq, şagirdlərin elm və biliklərə yiyələnib kamilləşməsinə öz töhfəmi vermək idi. Ali təhsilimi başa vurduqdan sonra bu il avqust ayında Naxçıvan şəhərində təşkil olunmuş təhsil yarmarkasına müraciət etdim. Həmin yarmarkada öz ixtisasıma uyğun iş yeri tapa bildim. Təyinatla Culfa şəhər 2 nömrəli tam orta məktəbə göndərildim.

Artıq iki aya yaxındır ki, həmin məktəbdə riyaziyyat müəllimi işləyirəm. Müəllimlik fəaliyyətimdə təcrübəli pedaqoqların da metodik köməkliyindən faydalanıram. Burada müəllim və şagirdlər üçün hər cür şərait yaradılıb. Məktəbimizin müasir memarlıq üslubunda əsaslı şəkildə yenidən qurulması, elektron lövhələrlə, kompüter dəstləri ilə təmin olunması tədrisin keyfiyyətinin yüksəldilməsinə əsaslı zəmin yaradır.

Hörmətli redaksiya!

Bütün bunlar dövlətimizin gələcək nəsillərə, eyni zamanda gənc kadrlara göstərdiyi böyük diqqət və qayğının təzahürüdür. Bu mənada, təhsil yarmarkalarının keçirilməsi də mənim kimi gənc müəllimlərin işlə təmin olunmasına geniş imkanlar açıb. Buna görə də dövlətimizə dərin minnətdarlığımı bildirirəm.

Biz gənclərin isə əsas vəzifəsi göstərilən qayğıya öz əməli işimizlə cavab vermək, ümummilli liderimiz Heydər Əliyev ideyalarının uğurla həyata keçirilməsi üçün var-qüvvəmizlə çalışmaqdır. Gənc müəllim kimi bundan sonra da şagirdlərin təlim-tərbiyəsində, onların vətənpərvər gənc kimi yetişmələrində səylərimi əsirgəməyəcək, bunun üçün var-gücümlə çalışacağam.

**Fəridə FƏRƏCOVA**
***Culfa şəhər 2 nömrəli tam orta məktəbin riyaziyyat müəllimi***

## Səyyar xidmətin fəaliyyəti razılıqla qarşılanır

***Hörmətli redaksiya!***

Bu məktubu sizə Babək rayonunun Qahab kəndindən yazıram. Müəyyən olunmuş qrafik əsasında rayonun bütün kəndlərində olan səyyar xidmət bir neçə gün bundan öncə fəaliyyətini Qahab kəndində davam etdirirdi. Mən özüm ümumvətəndaş pasportumu yeniləyəcək, məktəbli övladlarıma isə şəxsiyyət vəsiqəsi alacaqdım.

Onu da deyim ki, bir neçə il bundan öncə həmin xidmətlərdən yararlanmaq üçün rayon mərkəzinə üz tuturduq. Bu isə həm əlavə xərc, həm də vaxt itkisi demək idi. Artıq bu qayğılardan azad olmuşuq. Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində yaradılan səyyar xidmətin əməkdaşları xidməti avtomobil vasitəsilə yerlərdə olur, ümumvətəndaş pasportlarının, şəxsiyyət vəsiqələrinin verilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, eləcə də məhkumluq haqqında və arxiv arayışlarının verilməsi üzrə hüquqi xidmətlər göstərirlər.

Sağ olsun təşkilatçıları, indi kəndimizdən kənara çıxmadan problemləri həll edə bilirik. Qardaşım Pərviz və atam Savalan da həmin xidmətdən bəhrələnə bildilər. Dövlət orqanları tərəfindən göstərilən bu xidmət insanlara qayğının böyük ifadəsi ilə yanaşı, həm də muxtar respublikadakı inkişafın, yeniliyin nəticəsidir. Bu işlərə görə dövlətimizə dərin minnətdarlığımı bildirirəm.

**Şəhriyar QASIMOV**
***Qahab kənd sakini***

## Məktəbli uşaqlara qış geyimləri verilib



*Muxtar respublikamızda sağlamlıq imkanları məhdud, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş, aztəminatlı ailələrdən olan uşaqların sağlam böyümələri, biliklərə yiyələnmələri, milli və mənəvi dəyərlərə sadiq vətəndaş kimi yetişmələri, problemlərinin yerindəcə həll olunması istiqamətində həyata keçirilən tədbirlər bu qəbildən olan uşaqlara dövlət qayğısının bariz ifadəsidir.*

Həmin tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikasının Təhsil, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin və Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə yuxarıda adıçəkilən kateqoriyalardan olan məktəblilərə qış geyimləri təqdim olunub.

Bu münasibətlə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində təşkil olunan tədbirdə təhsil naziri Məmməd Qəribov, muxtar respublika əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək qeyd edliblər ki, xalqımızın milli və mənəvi dəyərlərinə əsaslanan dövlət-uşaq siyasətinin təməlini cəmiyyətimizin əsas özəyi olan ailələrin sosial müdafiəsinin gücləndirilməsi, təhsilin və səhiyyə xidmətinin səviyyəsinin artırılması, uşaq yaradıcılığının dəstəklənməsi təşkil edir. Bu gün əminliklə demək olar ki, uşaq və gənclərimizin gələcəyi etibarlı əllərdədir. Onların layiqli vətəndaş kimi böyüməsi, təhsil alması, cəmiyyətdə mövqe tutması üçün dövlətimiz tərəfindən bütün imkanlar səfərbər edilib, uşaqların fiziki, intellektual və mənəvi inkişafının təmin edilməsi sahəsində əhəmiyyətli addımlar atılıb.

Sonda aztəminatlı ailələrdən olan valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş məktəbli uşaqlara, sağlamlıq imkanları məhdud şagirdlərə qış geyimləri verilib.

Tədbirdən sonra həmsöhbət olduğumuz Gözəl Əhmədova, İzzət Məmmədova və başqaları göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıqlarını bildirdilər. Vurğuladılar ki, bu qəbildən tədbirlər valideynlərə və uşaqlara maddi-mənəvi dəstəkdir.

Qeyd edək ki, Təhsil Nazirliyi hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş 45, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 281 sağlamlıq imkanları məhdud, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi isə aztəminatlı ailələrdən 87 uşaq olmaqla, ümumilikdə, 413 uşağı isti qış geyimi ilə sevindiriblər.

Həmin gün muxtar respublikanın rayonlarında da analoji tədbirlər keçirilib.

**✍ Səbuhi HÜSEYNOV**

## Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində daha bir ilkə imza atılıb

Bu günlərdə muxtar respublikanın səhiyyə tarixində daha bir ilkə imza atılıb. Belə ki, Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində cərrahiyyə zamanı ECMO cihazı tətbiq edilib. Ekstrakorporeal Membran Oksigenasiyası (ECMO) ağciyər və ya ürək çatışmazlığı (ya da ikisi birlikdə) olan xəstələrdə başqa bir müalicə alternativi qalmadığı və ya uğursuz olduğu vəziyyətlərdə orqan zədələnməsinin qarşısını almaq üçün istifadə edilən müvəqqəti dəstək sistemidir. Bu aparatdan həyatı davam etdirmək üçün lazımi funksiyaları yerinə yetirə bilməyən ürək və ya ağciyər çatışmazlığı xəstələrinə müvəqqəti dəstək məqsədilə istifadə olunur.

Qeyd edək ki, muxtar respublika rəhbərinin şəxsi təşəbbüs və göstərişi ilə alınan bu aparat Azərbaycan Respublikasının az sayda səhiyyə mərkəzlərində mövcuddur.

Əməliyyatı həyata keçirən kardiocərrah Cabir Gülməliyev Türkiyə Respublikasında tibb və uzmanlıq təhsili alaraq hazırda ürək-damar cərrahiyyəsi uzmanı kimi fəaliyyət göstərir. O bildirib ki, üzərində açıq ürək əməliyyatı aparılmış 69 yaşlı xəstə beş gün sonra ciddi aspirasyon pnevmaniyası və ağciyər çatışmazlığı diaqnozu ilə yenidən Reanimasiya şöbəsinə götürülüb. Baş verən təngnəfəslik onun həyatı üçün ciddi təhlükə yaradıb. Reanimatoloqlar Şahin Mazanov, Xətai Əliyev və perfuzionist Eylas Kazımov ilə birgə konsilium qərarına əsasən xəstəyə muxtar respublika səhiyyəsi tarixində ilk olaraq ECMO müalicə sistemi tətbiq olunub və 72 saat ərzində xəstəyə edilən dəstək minimuma endirilərək ECMO-dan ayrılıb. Həyatı xilas olunmuş xəstə hazırda müvafiq müalicələr alır.

Böyük qürur hissi ilə demək olar ki, fəaliyyətinin ötən on ili dövründə Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi muxtar respublika rəhbərinin diqqət və qayğısı sayəsində əhalinin sağlamlığı keşiyində duraraq, günü-gündən diaqnostik və müalicə arsenalının zənginləşməsi sayəsində yeni-yeni uğurlara imza atmışdır. Belə ki, artıq muxtar respublikanın yerli kadrları müstəqil şəkildə xəstələr üzərində açıq ürək, angioqrafiya, laparoskopik, TUR, LOR, göz və digər mürəkkəb cərrahi əməliyyatları uğurla həyata keçirirlər.

Fərəhli haldır ki, artıq kardiocərrahi manipulyasiya və əməliyyatların hamısı – laparoskopik, sisteskopik əməliyyatlar kənardan heç bir mütəxəssis dəvət edilmədən, yalnız Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkim kadrları tərəfindən həyata keçirilir və muxtar respublika əhalisinin bu problemlərlə bağlı olaraq Bakı şəhərinə, xarici ölkələrə getmələrinə ehtiyac yoxdur. Artıq bir neçə ildir ki, respublikamızda ilk dəfə olaraq ultrasəslə müayinə aparatlarının nəzarəti altında müxtəlif orqanlardan və patoloji törəmələrdən nümunələr götürüb onların hüceyrə quruluşunu tədqiq etmək, həmçinin cərrahi müdaxilənin gedişində bir sıra orqanları bilavasitə müayinə edərək patoloji ocağın tapılmasına nail olmaq mümkündür. Son zamanlar respublikamızda ilk dəfə olaraq müxtəlif patoloji proseslər zamanı daralmış yemək borusunu genişləndirmək, bu nahiyəyə stend qoymaq, qapalı yolla mədəyə qastrostom borusu yerləşdirərək xəstələrin qidalanmasını təmin etmək üçün müasir tibbi müdaxilə üsulları tətbiq edilib.

Müxtəlif nevroloji xəstəliklər zamanı mərkəzi sinir sisteminin və əzələlərin fəaliyyətini müəyyənləşdirmək məqsədilə müvafiq olaraq elektroensefaloqrafiya və elektromioqrafiya müayinə üsulları da ilk dəfə olaraq bu səhiyyə müəssisəsində tətbiq olunmağa başlanmışdır.

**Hüseyn ƏSGƏROV**

*Yaşıl guşə*

## Yaşıllıq sahələrinin genişləndirilməsi sağlam ekoloji mühitə töhfəsini verir

***Hələ qədimlərdən türk hökmdarları ağacı yalnız yaşıllıq rəmzi deyil, həm də xalqın varlığının vacib şərti kimi qəbul edirdilər. Onlar ölkədə ağacların qorunması, onlara qulluq edilməsi arasında daxili əlaqənin olduğunu vurğulayıb, hətta bəzi ağacları müqəddəs sayıblar. Xalq inamına görə, həyətdə, yaşayış evinin ətrafında ağac əkilərsə, ailəyə xeyir-bərəkət, yaxşı gün-güzəran qismət olar. Çünki ağac var ki çiçəyi, yarpağı, meyvəsi, qabığı ilə min dərdə dərmandır. Ağac var ki meyvəsi ilə süfrəmizə yaraşıq verir. Ağac var ki görkəmi ilə göz oxşayır, bağları, parkları, həyətləri bəzəyir.***



Təsadüfi deyil ki,"Barlı ağacın başına dolanarlar" ideyası ilə ömür sürən babalarımız təbiətə, yaşıllığa, ağaca həyat mənbəyi kimi baxıb, ağac əkməyi, ona qulluq etməyi müqəddəs sayıblar. Ulularımız deyiblər: "Ağacı arx qırağında ək ki, yıxılanda el-obaya körpü olsun", "Ağaclı kəndi sel basmaz", "Ağacı çox olan elin məzarı az olar".

Qədim çağlardan yurdumuz bağçılıq-meyvəçilik diyarı kimi tanınıb. Xalqımız yüzillik ağacı da, körpə fidanı da bir övlad kimi qoruyub qayğısına qalıb, qocaman ağacların yerinə yenilərini əkib, onları böyüyüb ərsəyə çatmasına qayğı ilə yanaşıb. Axı ağac da insan kimi qulluq istəyir. Görkəmli təbiətşünas alim Həsən Əliyevin bu müdrik kəlamı isə daim yaddaşlardadır: "Bəlkə də, toya, yasa və digər mərasimlərə yubanmaq olar. Təbiətə münasibətdə yubanmaq isə yaşamağa yubanmaqdır".

Ulu öndərimiz Heydər Əliyev də yaşıllıqların salınmasına, ağacların qorunmasına böyük diqqət yetirirdi. Dahi rəhbər özü ağac əkilməsində iştirak edir, nümunə göstərirdi.

İnsanlıq naminə ağaclara qulluq etmək dinimizdə də savab iş sayılır. Bu barədə hədisi-şəriflərdən birində deyilir ki, kimsə bir ağac əkərsə, ağac meyvə verənə qədər onu qoruyub baxarsa, bu ağacdan tökülən hər meyvə Allah yanında o kimsənin sədəqəsi olar. Ona görə də bağ salmaq, ağac əkmək, ümumiyyətlə, ətrafı yaşıllığa qərq etmək ata-babalarımızın adəti olub. Ağac bolluq, şirinlik, mehribanlıq nişanəsi hesab edilir. Ümumilikdə isə ağaclar insanın qoruyucusu, onun sağlamlığının keşikçisidir, boya-başa çatdığı məkanın gözəlliyidir.

Bütün bunlarla yanaşı, gələcək nəsil qarşısında daşıdığımız məsuliyyət hissi təbiətə, ətraf mühitə vurulan zərərin azaldılmasını bizim hər birimizə aşılayır. Tədqiqatlara görə, ağaclar çox olan yerlərdə xəstəliktörədən mikroorqanizmlər 8, zərərli qazlar isə 5 dəfə az olur. Yaşıllıq sağlamlıq, gümrahlıq rəmzi olmaqla bərabər insan yaşayışının başlıca rəhnidir. İnsan övladı da onun üçün lazım olan təmiz havanı, oksigeni məhz bu mənbədən alır. Bu mənada, sağlamlığımız bu amildən asılıdır. Axı bir ağacın ətrafa verdiyi oksigenlə eyni vaxtda neçə-neçə insan nəfəs alır. Deyilənə görə, bir çinar ağacının verdiyi oksigen 58 adama bəs edir. Bir hektar meşə, yaşıllıq zolağı isə il ərzində 50-70 ton tozu, zərərli maddələri öz "süzgəcindən" keçirir.

Azərbaycan Sovetlər Birliyinin tərkibinə daxil edildikdən sonra ölkəmizin sərvətləri amansızcasına talansa da, götürülən mənfəətdən ekologiyanın qorunmasına sərf olunmur, ya da bu sahəyə xəsisliklə cüzi vəsait ayrılırdı. Həmin dövrdə yaşıllıqlar məhv edilir, yerinə müxtəlif obyektlər tikilirdi. Bütün bunlar ekoloji mühiti korlamaqla yanaşı, cəmiyyətimizə sosial-mənəvi zərbələr də vururdu. Yalnız böyük dövlət xadimi Heydər Əliyev 1969-cu ildə Azərbaycanda hakimiyyətə gələndən sonra bu məsələləri önə çəkdi, ətraf mühitin mühafizəsinə xüsusi diqqət yetirdi. O illər ölkəmizin ayrı-ayrı bölgələrində park və xiyabanların salınması, iməciliklər yolu ilə yaşıllıq zolaqlarının artırılması bu siyasətin uğurlu nəticəsi idi. Təəssüflər olsun ki, Azərbaycan öz müstəqilliyini bərpa etdiyi ilk illərdə bir vaxtlar ümummilli liderin təşəbbüsü və iştirakı ilə salınmış yaşıllıqlar acınacaqlı vəziyyətə düşdü. Muxtar respublikaya isə mavi yanacağın nəqli dayandırıldıqdan sonra yaşayış məntəqələrində ağaclar kəsilərək məhv edildi. Baxımsız qalan park və xiyabanlar dağıdıldı. Ulu öndər xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə olunması və onların bərpası istiqamətində yenidən ciddi və ardıcıl tədbirlər həyata keçirilməyə başlandı.

Əsası ümummilli lider tərəfindən qoyulan ekoloji siyasət bu gün ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının müvafiq sərəncamları ilə təsdiq olunan proqramların həyata keçirilməsi sahəsində əməli tədbirlər görülür. Bütün bu proqramların reallaşdırılması muxtar respublikamızın da zəngin təbiətinin mühafizəsinə əsaslı təminat verir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında yaşıllaşdırma, təmizlik və abadlıq aylığının keçirilməsi haqqında" 2001-ci il 1 mart tarixli Sərəncamı ilə hər ilin yaz və payız mövsümlərində yaşıllaşdırma, təmizlik və abadlıq tədbirlərinin görülməsi, əsasən, şənbə günləri keçirilən iməciliklər diyarımızın ətraf mühitinin mühafizəsində, yaşıllıq zolaqlarının salınmasında və qorunmasında böyük önəm daşıyır. Həmçinin mövcud ekoloji vəziyyətin daha da yaxşılaşdırılması, təbii sərvətlərin qorunması, onlardan səmərəli istifadə edilməsi məqsədilə Ali Məclis Sədrinin 2005-ci il 23 sentyabr tarixli Sərəncamı ilə 9 min 118 hektarlıq "Arazboyu" Dövlət Təbiət Yasaqlığı, 2009-cu il 22 iyun tarixli Sərəncamı ilə isə 68 min 911 hektar sahədə "Arpaçay" Dövlət Təbiət Yasaqlığının yaradılması da təbiətin qorunması istiqamətində uğurla atılan addımlardan biridir. Daha bir qayğı isə Ali Məclis Sədrinin 2017-ci il 4 oktyabr tarixdə imzaladığı "Naxçıvan Şəhər İcra Hakimiyyətinin tabeliyində "Yaşıl Bağ" publik hüquqi şəxsin yaradılması haqqında" Sərəncamdır.

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq çoxsaylı meyvə tingləri, dekorativ və meşə ağacları əkilib. Bu ilin yazında isə müxtəlif yerlərdə minlərlə meyvə, meşə və bəzək ağacları, qızılgül kolları və mövsümi çiçək şitilləri, arxların kənarlarına xeyli söyüd və qələmə çubuqları basdırılıb.

Bu payız günlərində də iməciliklər davam etdirilir, yeni yaşıllıqlar salınır. Hər həftənin şənbə günləri idarə və müəssisələrin kollektivləri əkib-becərdikləri bağlara, meşə zolaqlarına çıxır, ağacların quru budaqlarını və lazımsız zoğlarını vurur, ərazini alaq otlarından təmizləyir, ağacların gövdələrini əhənglə ağardır və suvarırlar. Bu qayğının, bu qulluğun nəticəsidir ki, Naxçıvan artıq yaşıllıqlar diyarına çevrilib. Bir vaxtlar yol kənarlarındakı ağacları barmaqla saymaq mümkün idisə, bu gün tamam başqa mənzərənin şahidi oluruq. Paytaxt Naxçıvan şəhərindən muxtar respublikanın bütün rayonlarına gedən yolların kənarlarında əkilmiş meyvə və meşə ağacları bu yollardan keçənlərin zövqünü oxşamaqla bərabər ekoloji təmizliyi də təmin edir. Həmin yaşıllıqlar zövq oxşayır, meyvə bağları bar-bəhər verir. Çinarlar, akasiyalar Günəşə boylanır, cərgələnmiş əlvan gül-çiçəklər bu gözəlliyə yeni rənglər qatır.

Yaşıllıq göz işığı, gümrahlıq mənbəyi olduğundan gündəlik həyatımızda əhval-ruhiyyəmizin yüksək olması da xeyli dərəcədə bu amildən asılıdır. Axı təbiətin bu canlı varlıqlarından zövq almağı bacarmaqla yanaşı, bir qədər yorğun və əsəbi olduqda yaşıllıqlar qoynunda gəzməyi, dincəlməyi ən yaxşı istirahət hesab etmişik.

O da qeyd olunmalıdır ki, ətraf mühitin sağlamlaşdırılmasına dövlət nəzarəti nə qədər güclü olsa da, təbiətin gözəlliklərinin qorunmasında hər kəsin iştirakı vacibdir. Çünki yaşayış yerlərimizin abadlığına, sağlam atmosferinə, bir sözlə, təbiətin mühafizəsinə cavabdehlik inzibati təsirlərlə yanaşı, vətəndaş həmrəyliyi və cavabdehliyi ilə də tənzimlənməlidir. Təbiətin mühafizəsinə ekoloji nəzarəti gücləndirmək bənzərsiz gözəllikləri – təbiətin saysız-hesabsız nadir incilərini qorumaq deməkdir. Ona görə də insanların ekoloji təfəkkürünün formalaşması, ekoloji mədəniyyətimizin inkişaf etdirilməsi üçün mühüm əhəmiyyət daşıyan ekoloji maarifləndirmə işləri diqqət mərkəzində saxlanılır.

Çünki yaşıllıq sahələrinin genişləndirilməsi, zənginləşdirilməsi muxtar respublikanın ayrılmaz həyat ritminə çevrilib. Bu isə sağlam ekoloji mühitə öz töhfəsini verir.

✍ **Ramiyyə ƏKBƏROVA**

## Audiokitabxananın fəal dinləyiciləri mükafatlandırılıb

Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində görmə məhdudiyyəti olan şəxslərə informasiya texnologiyaları sahəsində bilik və bacarıqlar aşılanır, brayl əlifbasının tədrisi üzrə kurslar təşkil olunur. Bundan başqa, onların asudə vaxtlarının təşkili məqsədilə müxtəlif tədbirlər keçirilir, hər ay "Könül işığı" adlı brayl jurnalı nəşr edilir, bunlarla yanaşı, onlar üçün audiokitabxana xidməti də fəaliyyət göstərir. Audiokitabxananın kataloqu dinləyicilərin müraciətinə əsasən daim yeni ədəbiyyatlarla zənginləşdirilir. Hazırda kitabxanada 1275 audiokitab və digər audiomateriallar mövcuddur. Audiokitabxanada 17 bölmə üzrə 365 dinləyiciyə xidmət göstərilir.

Beynəlxalq Gözdən Əlillər Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə noyabrın 10-da Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində audiokitabxananın fəal dinləyicilərinin iştirakı ilə görüş keçirilib. Tədbirdə 5 nəfər görmə məhdudiyyəti olan fəal dinləyiciyə hədiyyələr təqdim edilib.

Qeyd edək ki, mərkəzin "258" nömrəli telefon xətti 24 saat ərzində görmə məhdudiyyəti olan şəxslərin xidmətindədir. Dinləyicilər ev telefon nömrələrini qeydiyyatdan keçirdikdən sonra bu xidmət xəttinə zəng etməklə audiokitabları dinləyə bilərlər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Şagirdlər arasında kross yarışı keçirilib

Şahbuz Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi, Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı Gənclər Birliyi, Naxçıvan Muxtar Respublikası Yüngül Atletika Federasiyasının Şahbuz rayon bölməsinin təşkilatçılığı ilə 12 noyabr – Konstitusiya Günü münasibətilə rayon ümumtəhsil məktəblərinin şagirdləri arasında 2000 metr məsafəyə kross yarışı keçirilib.

Yarış başlanmazdan öncə rayon Gənclər və İdman İdarəsinin rəis əvəzi İdris Qəhrəmanov, Uşaq-gənclər idman məktəbinin direktoru Ramil Qənbərov çıxış edərək iştirakçılara yarışın keçirilməsi və tədbirin mahiyyəti haqqında geniş məlumat veriblər.

Şəhərin "28 May" küçəsində keçirilən yarışda 40-dan artıq atlet qüvvəsini sınayıb. Gərgin idman mübarizəsi şəraitində keçən yarışda ilk iki pillədə Sələsüz kənd tam orta məktəbinin şagirdləri Rəşad İsmayılov və Malik Zeynibəyli qərarlaşıblar. Ayrınc kənd tam orta məktəbinin şagirdi Yusif Həsənli isə üçüncü olub.

Yarışda I, II, III yerləri tutan atletlərə rayon Gənclər və İdman İdarəsinin diplomları təqdim edilib.

## Zəka sahibləri qüvvələrini sınayıb



***Culfa Rayon Uşaq-gənclər şahmat məktəbində rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının Culfa rayon bölməsinin təşkilatçılığı ilə yeniyetmələr arasında şahmatın tempo növü üzrə rayon birinciliyi keçirilib.***

Birincilikdə 40 yeniyetmə şahmatçı mübarizə aparıb. Rayon Gənclər və İdman İdarəsinin əməkdaşı Elçin Cəfərov, Təhsil Şöbəsinin əməkdaşı Ramazan Abuzərov və rayon Uşaq-gənclər şahmat məktəbinin direktor əvəzi Vüsalə Ələkbərova çıxış edərək idmana göstərilən dövlət qayğısından, federasiyaların qarşısına qoyulan məqsədlər və bu sahədə görülən işlər barədə tədbir iştirakçılarına ətraflı məlumat veriblər.

Gərgin mübarizə şəraitində keçən görüşlərdə 6,5 xal toplayan Elcan Qulamzadə qalib adını qazanıb. Sunay Kərimli 6 xalla ikinci, Şahin Dünyamalıyev isə 5,5 xalla üçüncü olub.

Yekunda qalib və fərqlənən şahmatçılara təşkilatçılar tərəfindən diplom və hədiyyələr təqdim edilib.

## İntellektual oyunun Ordubad rayon birinciliyi başa çatıb



*Ordubad Rayon Mədəniyyət Evində yeniyetmələr arasında keçirilən "Nuh yurdu" intellektual oyununun Ordubad rayon birinciliyinə yekun vurulub.*

Birincilik Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Heydər Əliyev adına Gənclər Birliyi və Gənclərin İntellektual İnkişaf Mərkəzi İctimai Birliyinin təşkilatçılığı ilə keçirilib.

Əvvəlcə Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Tahir Məmmədli çıxış edərək oyunun keçirilməsində məqsədin yeniyetmələrin intellektual səviyyəsini, dünyagörüşünü, zehni inkişafını stimullaşdırmaq, onlar arasında bilik və elmin nüfuzunu artırmaq olduğunu bildirib və komandalara uğurlar arzulayıb.

8 komandanın iştirak etdiyi oyun yarımfinal və final mərhələsindən ibarət olub. Final mərhələsinə "Xəzər", "Qasırğa", "Qarabağ" və "Danyeri" komandaları vəsiqə qazanıblar.

Yekunda Ordubad şəhər M.Füzuli adına tam orta internat məktəbinin "Qarabağ" komandası intellektual oyunun qalibi olub. Əndəmic kənd tam orta məktəbinin "Danyeri" və Ordubad şəhər 3 nömrəli tam orta məktəbin "Qasırğa" komandaları isə müvafiq olaraq ikinci və üçüncü yerlə kifayətləniblər.

Qalib komandalara təşkilatçıların kubok, diplom, fəxri fərman və oxunması zəruri olan kitablar kitabxanası təqdim olunub.

✍ **Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti bina 27, mənzil 3-də yaşamış Axundov Əli Əsəd oğlunun adına olan 10027 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1000. Sifariş № 914**